Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI
ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN

100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

# "AZƏRBAYCANDA SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İNKİŞAFI: DÜNƏN, BU GÜN VƏ SABAH"

MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN

**M A T E R İ A L L A R I**

**Həşimova A.Ç.**
Sosial xidmət sahəsində dövlət siyasətinin əsas istiqamətləri və idarəetmənin təkmilləşdirilməsi ........ 73

**Hüseynova F.A.**
İnsultlu xəstələrin reabilitasiyası ........ 77

**İbrahimov E.Y.**
Sosial müdafiə və Naxçıvan Muxtar Respublikasında onun aktual məsələləri ........ 81

**Исмаилова М.Ф.**
Роль инновационного кадрового потенциала в развитии системысоциальной защиты населения ........ 85

**Mahmudova R.Ş., Qurbanova K.Ş.**
Eşitmə və nitq əngəlli insanların cəmiyyətə adaptasiyası problemləri ........ 88

**Məhərrəmova S.S.**
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi sahəsində Almaniya Federativ Respublikasi ilə əməkdaşliq əlaqələrinə dair ........ 92

**Мусаева Н.Я.**
Сравнительный анализ социальной работы, проводимой с пожилыми в Великобритании и во Франции ........ 95

**Nəcəfova Z.S.**
Əlilliyi olan uşaqların reabilitasiyası prosesində Günərzi Qayğı Xidmətinin rolu ........ 99

**Ocaqverdiyeva S.S.**
İnternetdə uşaqlari gözləyən təhlükələr və onlarla mübarizə yolları ........ 102

**Qurbanova A.F.**
Əqli geriliyi olan uşaqların valideynlərinə, xüsusilə analarına qarşı stiqma ........ 107

**Süleymanov A.Ş., Əhmədova M.İ.**
Əhalinin sosial müdafiəsi sisteminin reallaşdirilmasinda effektiv innovativ texnologiyalar ........ 110

**Alışova F.A.**
Sosial müdafiə sistemində sosial işçinin rolu ........ 114

**Hacıoğlu R.İ.**
Pensiya təminatının mövcud vəziyyətinin təhlili ........ 118

**Tağızadə F.Ə.**
Azərbaycanda əlilliyi olan şəxslərlə bağlı qanunvericiliyin qısa icmalı ........ 123

**Бабаева Л.А.**
Социально-психологическая адаптация детей с синдромом Дауна в семье ........ 127

**Əliyeva N.R.**
Əlilliyi olan şəxslərin reablitasiyasında sosial modelin rolu ........ 131

**Ağayeva S.X.**
Natamam ailələrin sosial müdafiəsi ........ 135

**Əliyev Ü.M.**
Sosial sifarişlər əsasında icma əsaslı sosial reabilitasiya xidmətlərinin təkmilləşdirilməsi problemləri ........ 138

**Zeynalov M.A.**
Azərbaycan və dünya kinosunda əlil təsvirləri ........ 142

**Наджафова Зюлейха Сейфулла**
*Азербайджанский Университет*

**РОЛЬ СЛУЖБ ДНЕВНОЙ ЗАБОТЫ В ПРОЦЕССЕ РЕАБИЛИТАЦИИ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ**

***Резюме.*** *Реабилитацию следует рассматривать как комплекс мер, направленных в первую очередь на семью, а не на меру лечения, оптимизированную для ребенка с ограниченными возможностями.Система реабилитации охватывает не только детей, но предусматривает услуги и для их родителей, всей семьи и для более широкой среды. В нашей стране существует острая потребность в организации услуг дневного пребывания.Организация дневного ухода требует решения ряда серьезных задач. Проблема инвалидности у детей является актуальной проблемой во всем мире. Семья, имеющая ребенка с ограниченными возможностями, ее близкое окружение – это важная часть воспитания ребенка, его социализации, обучения и удовлетворения потребностей.*

***Ключевые слова:*** *дети с ограниченными возможностями, реабилитационные услуги, социализация детей, детский сад.*

**Najafova Züleyxa Seyfulla**
*Azerbaijan University*

**ROLE OF DAY CARE SERVICES IN THE PROCESS OF REHABILITATION OF CHILDREN WITH DISABILITIES**

***Summary.*** *Rehabilitation should be considered as a complex of measures aimed primarily at the family, but not the measure of treatment optimized for the child with disabilities.The rehabilitation system encompasses not only single children but also services to their parents, the entire family, and to the larger environment. There is a great need in our country for the organization of sunflower care services.The organization of daycare services requires a number of serious issues. The problem of disability in children is an urgent problem all over the world. A family with limited health capabilities, its close circle – is a major part of the child's upbringing, socialization, and reimbursement of the needs of the education system.*

***Keywords:*** *children with disabilities, rehabilitation services, socialization of children, day care services.*

**Ocaqverdiyeva Sabirə Səfərалı qızı**
*AMEA İnformasiya Texnologiyaları İnstitutu*

# İNTERNETDƏ UŞAQLARI GÖZLƏYƏN TƏHLÜKƏLƏR VƏ ONLARLA MÜBARİZƏ YOLLARI

***Xülasə.*** *Tezisdə İnternet mühitində uşaq və yeniyetmələrin təhlükəsizliyinin təmin edilməsi problemləri araşdırılır, bu təhlükələrdən qorunma mexanizmləri şərh edilir. Azərbaycan Respublikasında*

*bu sahə üzrə mövcud olan hüquqi sənədlər haqqında məlumat verilir. Onlayn mühitdə uşaqların təhlükəsizliyinin təmin olunmasına dair təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *informasiya, uşaqlar, kompüter, təhlükə, zərərli.*

İnternetin imkanları getdikcə artır və insan fəaliyyətinin bütün sahələrinə inteqrasiya olunur. Artıq İnternet insanların gündəlik həyatının bir hissəsinə çevrilmişdir, onun təsiri ilə ünsiyyətin yeni rəqəmsal forması yaranmışdır. Bir çox insanlar İnternetin imkanlarından istifadə edərək öz işlərini, istirahətlərini, əlaqələrini və s. virtual mühitdə qurur və öz peşə fəaliyyətləri ilə əlaqədar olaraq günün müəyyən hissəsini İnternetdə keçirirlər. Böyüklərlə yanaşı, uşaqlar da internetin fəal istifadəçiləridir. Geniş zolaqlı İnternetin geniş tətbiqi ilə əlaqədar istifadəçilərin sayı hər il çoxalır. Məlumatlara çıxış yalnız ev kompüteri ilə məhdudlaşmır, həmçinin Wi-Fi, noutbuklar, smartfonlar, planşetlər, mobil telefonlar hər bir uşağın hər yerdə İnternetə çıxışına şərait yaradır və informasiyanı daha əlyetərli edir. Uşaq və yeniyetmələr İnternetdən məlumat mənbəyi kimi istifadə edir, müəyyən biliklər əldə edir, şəbəkə oyunları oynayır, sosial şəbəkələrdə ünsiyyət qurur və axtarışlar edirlər. Lakin uşaq və yeniyetmələrin İnternetdən istifadəsi artdıqca, onların onlayn təhlükəsizliyi ilə bağlı ciddi problemlər yaranır [1].

Məlumdur ki, İnternetdə zərərli məlumatların yerləşdirildiyi səhifələrin olması uşaq və yeniyetmələrin bilməyərəkdən yaşa uyğun olmayan kontentlə rastlaşmasına səbəb olur. Uşaqlarda müasir düşüncənin formalaşması problemini öyrənən mütəxəssislər (psixoloqlar, sosioloqlar, psixiatrlar və s.) belə hesab edirlər ki, İnternet və kompüter uşaq və yeniyetmələrin psixi və fiziki sağlamlığına təsir edir [2]. Uşaqlar dedikdə, burada 18 yaşına çatmamış şəxslər nəzərdə tutulur.

İnternetdə, əsasən də sosial mediada pornoqrafiya, işgəncə, qəddarlıq səhnələri, narkotik, spirtli içkilər, terrorizm, vandalizm, pis vərdişlər və s. təbliğatını aparan kontentlərin sayı yetərincə artmışdır. Bədniyyətli insanlar tərəfindən uşaq psixologiyasına təsir edən, onlarda qorxu, təlaş, dəhşət, vahimə kimi hisslərin yaranmasına səbəb olan məlumatlar yerləşdirilir.

Uşaqları cinayətə, pis vərdişlərə, mənfi işlərə cəlb edən insanlar sosial şəbəkələrdə, forumlarda, çat otaqlarında və s. virtual məkanlarda onlarla ünsiyyət quraraq, təbliğat aparır, azyaşlıları müəyyən qruplara, dini icmalara cəlb edirlər.

Uşaqlar İnternetdə işləyərkən onlar həm özlərinin şəxsi təhlükəsizliyinə, həm də istifadə etdikləri kompüterin təhlükəsizliyinə yönəlmiş müxtəlif təhlükələrlə qarşılaşır. Aşağıda bu təhlükələr haqqında məlumat verilir:

**Kiberzorakılıq (ing. Cyberbullying).** Bu,virtual terrordur (bull ingiliscə öküz mənasını verir), tərcümədə təcavüzkar hücum, təcavüz, təhqir, təhrik etmək və qəzəbləndirmək kimi mənalarnı ifadə edir və elektron poçt, ani mesajlaşma, çat otaqları, sosial şəbəkələr, veb-saytlar, eləcə də mobil telefonlar vasitəsilə həyata keçirilir [2]. İnsanlara psixoloji zərər vurmaq üçün virtual hücumdur. Burada iştirakçılar arasında qeyri-bərabər gücə malik olan münasibətlər baş verir. Bu, ardıcıl olaraq həyata keçirilir və qəsdən olunan bir davranışdır.

Kiberzorakılıq qrup şəklində və ya yalnız bir nəfər tərəfindən həyata keçirilən mənfi davranışdır. İnsanlara mesajlar göndərməklə onları təhqir edir, veb-səhifəsini ləğv edir, alçaldıcı məzmunun yerləşdiyi yerlərdə saxta səhifələr yaradır və həmin insanın ünvanına təhqiramiz və əxlaqsız mesajlar yayırlar.

**İnternet-asılılıq.** Uşaqlar və böyüklər İnternetdə saatlarla vaxt keçirir, müəyyən axtarışlar aparır, sosial şəbəkələrdə ünsiyyət qurur, yaxud şəbəkədə oyunlar oynayır və beləliklə də, özləri də bilmədən günün təxminən, 18 saatını İnternetin qarşısında olurlar. Belə uşaqlar dərslərinə yaxşı hazırlaşa bilmir, yeməyini vaxt-

lı-vaxtında yemir, real ünsiyyətdən daha çox virtual ünsiyyətə üstünlük verir. Onlar sosiallaşa bilmir, bir sözlə, cəmiyyətdən qaçır, özünü yalnız virtual aləmdə tapır. Nəticədə, belə uşaqların sağlamlığı ilə bağlı müəyyən problemlər yaranır (gözləri zəifləyir, fiziki görkəmi dəyişir, pinqvinləşir və s.). İnternetdən asılılıq uşaqların sağlamlığının və psixologiyasının korlanmasına səbəb olmaqla yanaşı, onları müxtəlif kibercinayətlərin həm obyekti, həm də subyektinə çevirə bilər [3, 4].

**Azartlı oyunlar.** İnternetdə öyrədici xarakterli, məntiqi, şəkilli, əyləncəli, uşaqların beynini inkişaf etdirən oyunlarla yanaşı, həm də azartlı oyunlar da vardır. Azartlı oyunlara həqiqi pullarla oynanılan qumar oyunlarını aid etmək olar. Bu oyunlar uşaq və yeniyetmələrə pis vərdişlər aşılayır və zaman keçdikcə ailələr üçün mənfi nəticələrə və maddi problemlərə gətirib çıxarır. Şəbəkədə oynanılan ideologiya xarakterli oyunlar şiddəti, zorakılığı, dini ayrı-seçkiliyi təbliğ edir, uşaqları milli adət-ənənələrdən uzaqlaşdırır. Araşdırma göstərir ki, onlayn oyunlar asılılıq simptomlarının yaranmasına gətirib çıxara bilər [5,6].

Fişinq texnologiyası – kiberdələduzluğun ən çox yayılmış formasıdır. Hakerlər qanunsuz maddi mənfəət əldə etmək üçün bundan istifadə edir. Virtual dələduzlar kompüter istifadəçilərini tora salaraq, kredit kartı nömrələrini, parol və şifrələri, hesab nömrələrini və s.şifrələri əldə edərək onlara ziyan vururlar [1].

İnternetdən istifadə zamanı uşaqlar şəxsi təhlükələrlə yanaşı, həm də kompüterin təhlükəsizliyinə yönəlmiş müxtəlif təhlükələrlə qarşılaşırlar.Veb-səhifələri açarkən avtomatik yüklənən proqramlar, təklif olunan pulsuz proqram təminatları, avtomatik qurulan reklam proqramları, casus proqramları, spam, zərərli kodun müxtəlif formaları və kompüter virusları elektron təhlükələrdir.

Cinayətkarların hədəfinə çevrilmə. Yeniyetmələrin çoxu veb-gündəliklərə və ya bloqlara, sosial şəbəkələrə özlərinin şəxsi məlumatlarını (ad, soyad, ailəsi haqqında, yaşayış yeri, oxuduğu məktəbi, telefonları və s. informasiyaları) yerləşdirirlər. Nəticədə belə təhlükələrdən xəbərsiz uşaqlar kibercinayətkarların hədəfinə çevrilərək onların toruna düşürlər. İnternetdə ünsiyyət virtual olduğundan cinayətkarların özlərini yaxşı biri kimi təqdim etməsi və şəbəkənin o biri tərəfində olan azyaşlının etimadını qazanması çətin olmur [1].

Zərərli informasiya – ölkənin mədəniyyətinə, mentalitetinə zidd olan və qanunvericiliyə əsasən təsdiq olunmuş qaydada uşaqların yaş qrupuna uyğun olmayan materiallar hesab edilir. Öz mədəniyyətini, tərbiyəsini (erotizm və pornoqrafiya, normadankənar leksika ilə danışıq, söyüş, jarqon və s.) yaxud pis niyyətlərini təbliğ edən insanlar İnternetdə müxtəlif məlumatlar yayır. Onlayn mühit narkotikdən istifadə, terrora cəlb etməni dəstəkləmək istəyənlər üçün çox əlverişlidir. Burada irqi ayrı-seçkiliyi təbliğ edən, uşaq intiharına (suisid) gətirib çıxaran, müxtəlif zərərli, partlayıcı, narkotik maddələrin hazırlanmasını və qəbulunu təbliğ edən və digər (şiddət, qərəzli məzmun və s.) məlumatlarla qarşılaşma riski yüksəkdir [6].

Bir çox ölkələrin qanunvericiliyinə əsasən, uşaqlar və yeniyetmələrlə cinsi əlaqəli materiallar, cinsi zorakılığı təbliğ edən, ekstremizm və irqçi nifrətə qarşı həssaslıq da daxil olmaqla, zorakılıq təsvirləri qanunsuz hesab edilir və istifadəsi qadağan olunur [7].

İnternetdə uşaqların diqqətini çəkən elə bir reklam çarxı, çağırış yaxud işlədilən qeyri-etik, jarqon ifadələr, pis vərdişləri aşılayan məzmun ola bilər ki, onların maraqlarını tamamilə qeyri-sağlam bir mühitə cəmləşdirə bilər. Bəzən, uşaqların evdən getməsi, cinayətkarlarla görüşməsi və onlardan istismar məqsədilə istifadə edilməsi İnternet mühitinin ailələrə bəxş etdiyi mənfi informasiyaların nəticəsində baş verir [6,7].

E-dövlətin qurulmasında təhlükəsizlik məsələləri həlli vacib olan problemlərdən biridir. Uşaq və yeniyetmələrin onlayn təhlükəsizliyinin təmin edilməsi problemi mürəkkəbdir və onun həlli bir qədər kompleks yanaşma tələb edir. Aşağıda qeyd edilənlərdən istifadə etməklə uşaqların İnternet mühitində təhlükəsizliyini təmin etmək məqsədəuyğundur:

- Uşaqları İnternetdə olan mövcud təhlükələr haqqında məlumatlandırmaq, maarifləndirmək və təbliğat aparmaqla;
- Proqram-texniki tədbirlər həyata keçirməklə;
- Hüquq səviyyəsində tənzimləmələr (qanun, akt və digər normativ sənədlər) vasitəsilə.

Gənc İnternet istifadəçilərinin üzləşdiyi onlayn risklərin qarşısının alınmasında ən effektiv yollardan biri kimi aşağıdakıları qeyd etmək olar:

- Profilaktik tədbirlər həyata keçirmək məqsədilə məktəblərdə təhlükələr və onların yaratdığı problemlərlə əlaqədar treninqlər keçirilməli;
- Uşaqlar, valideyn, müəllim və himayədarları İnternetdəki təhlükələr barədə məlumatlandırımaq məqsədilə maarifləndirici vəsaitlər hazırlanmalı (broşür, kitabçaların, bukletlərin hazırlanması, təhlükələrin yaratdığı pis nəticələri göstərən video-çarxların hazırlanması və s.);
- İnformasiya resuslarından istifadə edərək, İnternetdən təhlükəsiz istifadə ilə bağlı sayt yaratmalı və dərs vəsaiti hazırlamalı, orta məktəblərdə bu fənnin tədrisi və bunun necə vacib bir problem olduğunu təbliğ etməli;
- Məktəblərdə "Təhlükəsiz İnternet Günü" qeyd edilməli, məktəblilər arasında bu problemlərə həsr olunmuş müxtəlif tədbirlər keçirilməli;
- Texniki nəzarəti gücləndirməli (kontent filtrasiyası).

Qeyd olunan təkliflərlə yanaşı, ölkəmizdə uşaqların İnternetdə təhlükəsizliyinin təmin edilməsi üçün Milli Təhlükəsiz İnternet Mərkəzlərinin yaradılması məqsədəuyğundur. Beynəlxalq təşkilatlarla (İnsafe) əməkdaşlığın yaradılması isə işə müsbət təsirini göstərir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya"da virtual məkanda Azərbaycanın informasiya fəzasının təhlükəsizliyinin təmin edilməsi nəzərdə tutulur. Milli Strategiyada "uşaqların qanunazidd və təhlükəli kontentdən qorunması üçün "təhlükəsiz internet" mexanizminin işlənilməsi və tətbiqi" informasiya təhlükəsizliyinin təmin edilməsində əsas hədəflərdən biri kimi nəzərdə tutulur [8].

Son zamanlar bu siyasətin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən 30 oktyabr 2018-ci il tarixdə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir və 1 yanvar 2020-ci il tarixdən qüvvəyə minəcəkdir [9]. Bu qanun milli səviyyədə uşaqların ziyanlı kontentlərdən qorunmasını təmin edərək, istər virtual məkanda, istərsə də real həyatda onların sağlamlığına və psixoloji inkişafına müsbət təsir edəcəkdir.

İnternetdə olan təhlükələr və onların yaratdıqları problemlərin həlli dərin elmi araşdırmalar tələb edir. Bu problemlərlə bağlı aparılan çox əhəmiyyətli tədqiqatlara baxmayaraq, uşaq və yeniyetmələrin İnternet təhlükəsizliyinin yaxşılaşdırılması problem olaraq qalır və nəticədə hər dəfə kibercinayətkarların qurbanı olan uşaqlarla rastlaşırıq. Bu, həm də sosial bir problem olduğu üçün hamını narahat edir. Uşaq və yeniyetmələrin İnternetdən istifadəsi zamanı onların yönəlmiş təhdidlərdən qorunması vacibdir. Valideyn, məktəb, himayədar, əlaqədar qurumlar və dövlətin birgə fəaliyyəti nəticəsində bu iş öz müsbət həllini tapa bilər.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Ocaqverdiyeva S.S. İnternet mühitində uşaqların təhlükəsizliyinin təmin edilməsi məsələləri / İnformasiya Cəmiyyəti Problemləri, 2018, №1, s. 99-107.
2. Cenat J., Blais M., Lavoie F., Caron P., Hebert M.. Cyberbullying victimization and substance use among Quebec high schools students: The mediating role of psychological distress/Computers in human behavior, 2018, vol.89. pp. 207-212.
3. Mohd Yusof S.H., Othman S.H.. The Cyberpsychology Factors of Internet Addiction among School Teenagers/International Journal of Innovative Computing, 2018, vol. 8, №3, pp. 31-37.
4. Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya asılılığı problemləri və onlarla mübarizə yolları/ İnformasiya Texnologiyaları nəşriyyatı, Bakı, 2009, 62 s.
5. Kuss D.J., Griffiths M.D.. Adolescent online gaming addiction//Education and Health. 2012,vol.30, №1, pp.15-17.
6. Allahverdiyeva S.S. Uşaqların İnternetdə təhlükəsizliyinin təmin edilməsi problemləri, İnformasiya Texnologiyaları, Bakı, 2016, 91 s.
7. Mahmudova R.Ş., Allahverdiyeva S.S.Elektron mühitdə gənc nəslin təhlükəsizliyinin təmin edilməsi problemləri //"Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı, Bakı, 2014, s.185-188.
8. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya, 02 aprel 2014-cü il,www.president.az.
9. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, https://president.az/articles/30815.


**Оджагвердиева Сабира Сафарали**
*Институт Информационных Технологий НАНА*

**ОПАСНОСТИ, ПОДЖИДАЮЩИЕ ЖДУТ ДЕТЕЙ В ИНТЕРНЕТЕ, И ПУТИ БОРЬБЫ С НИМИ**

***Резюме.*** *В тезисе рассматривается проблема обеспечения безопасности детей и подростков в Интернетсреде. Интерпретируются механизмы защиты от этой опасности. Предоставляется информация о правовых документах Азербайджанской Республики в этой области. Выдвигаются предложения по безопасности детей в онлайн-среде.*

***Ключевые слова:*** *информация, дети, компьютер, опасность, вред.*

**Ocagverdieva Sabira Safarali**
*Institute of Information Technology of ANAS*

**HAZARDS FOR WAITING FOR CHILDREN ON THE INTERNET, AND WAYS TO FIGHT AGAINST THEM**

***Summary.*** *The problems of ensuring the security of children and adolescents in the Internet are investigated in the thesis. The protection mechanisms from these dangers are interpreted. About the legal documents in this field, that is available in The Republic of Azerbaijan, is informed. Proposals for the safety of children in the online environment are put forward.*

***Keywords:*** *information, children, computer, danger, harmful.*